# Azərbaycanın sədrliyi TÜRKPA-nın nüfuzunu daha da artıracaq

**"Türk Dövlətləri Parlament Assambleyasının Bakıda növbəti sessiyasının keçirilməsi türk dünyası birliyinin növbəti nümayişi oldu. TÜRKPA-nın nümayəndə heyətləri iki gün ərzində türk dövlətlərini maraqlandıran məsələlər üzrə ölkəmizdə fikir mübadiləsi apardı, bir-birinin müsbət təcrübələrindən istifadə məsələlərinə toxundular".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, bütün bunlar türk dövlətlərini bir-birinə daha da yaxınlaşdırır. Prezident İlham Əliyev andiçmə mərasimində "Bizim ailəmiz türk dünyasıdır" deyə bəyanatını etmişdi. Bununla da xarici siyasətində türk dövlətləri ilə əməkdaşlığın prioritet olacağını diqqətə çatdırmışdı. Bunu fevral ayından bəri dövlətimizin başçısının xarici siyasətində daha qabarıq şəkildə görürük. "Əvvəllər də türk dövlətləri ilə əməkdaşlıq Azərbaycan üçün əsas məsələlərdən biri idi. Amma bu əməkdaşlıq və birlik getdikcə artmaqdadır", - deyə deputat bildirib.

Növbəti bir ildə TÜRKPA-ya Azərbaycanın sədrlik edəcəyini xatırladan A.Mirzəzadə qeyd edib ki, ölkəmiz bu təşkilatın nüfuzunun qaldırılmasında böyük rol oynayacaq: "Prezident İlham Əliyevin Şuşada Türk dövlətlərinin qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü də yüksək dəyərləndirilib. Türk liderləri dünyaya bir daha öz güclərini və həmrəyliklərini göstərəcəklər. Daha çox məsələlərdə birgə fəaliyyətlə öz regional və qlobal mövqelərini möhkəmləndirəcəklər".

Deputat xatırladıb ki, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə türk dövlətləri də dəstək verirlər. Türkiyənin isə həm dövlət səviyyəsində, həm də özəl sektorunun Qarabağ və Şərqi Zəngəzurda bərpa işlərində iştirakı qürurvericidir.

A.Mirzəzadə qeyd edib ki, Azərbaycan türk dünyasının nüfuzunun qalxmasına həmişə layiqli töhfələr verir. TÜRKPA-nın Bakıda keçirilən iclası, türk dövlətləri başçılarının Şuşada gözlənilən görüşü bu dövlətlər arasında əlaqələrin daha da inkişafına xidmət edəcək. Azərbaycanın TÜRKPA-ya sədrliyi isə təşkilatın nüfuzunu bir qədər də artıracaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 9 iyun, № 121.- S.7.